

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 153 (24.040)

16 avqust 2022-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 15-də Qırğız Respublikasının Nazirlər Kabinetinin sədr müavini Bakıt Torobayevi qəbul edib.

Dövlətimizin başçısı Azərbaycan Respublikası ilə Qırğız Respublikası arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Bakıda keçiriləcək iclasına toxunaraq, bu formatın iqtisadi və digər sahələrdə qarşılıqlı fəaliyyətin möhkəmlənməsi işinə xidmət edəcəyinə ümidvarlığını bildirib.

İkitərəfli əlaqələrdən danışan dövlətimizin başçısı yüksək səviyyəli qarşılıqlı səfərlərin münasibətlərimizin genişləndirilməsinə verdiyi töhfəni qeyd edib. Bu baxımdan Qırğız Respublikasının Prezidentinin bu il ölkəmizə səfəri zamanı əməkdaşlığın geniş gündəliyi ilə bağlı səmərəli danışıqların aparıldığını və dövlət başçıları arasında çox yaxşı şəxsi təmasın qurulduğunu deyib.

Bakıt Torobayev, ilk növbədə, Qırğız Respublikasının Prezidenti Sadır Japarovun salamlarını dövlətimizin başçısına çatdırıb.

Söhbət zamanı humanitar və təhsil sahələrində əməkdaşlığın önəmi qeyd edilib, kənd təsərrüfatı, energetika, investisiya qoyuluşu ilə bağlı gələcək əməkdaşlıq məsələləri müzakirə olunub.



## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətinin məlumatı

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti avqust ayının ilk 15 günü ərzində bir sıra qərarlar qəbul edib. Belə ki, Nazirlər Kabinetinin müvafiq Qərarı ilə "Çağırışçıların və hərbi vəzifəlilərin hərbi qeydiyyatının aparılması Qaydası"nın və "Çağırışçıların və hərbi vəzifəlilərin hərbi uçotunun aparılması Qaydası"nın təsdiq edilməsi haqqında" qərarlarında dəyişiklik edilmişdir.

Nazirlər Kabinetinin müvafiq Qərarı ilə "Naxçıvan Diaqnostika Müalicə Mərkəzi" publik hüquqi şəxsin yeni Nizamnaməsi və strukturu təsdiq edilmişdir.

Eyni zamanda Nazirlər Kabinetinin 2022-ci il 5 avqust tarixli digər bir Qərarı ilə "Koronavirus infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi haqqında" Qərarında dəyişiklik edilmişdir. Müvafiq dəyişikliyə görə Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklər Mərkəzi publik hüquqi şəxsin tibbi profilaktik tədbirləri həyata keçirən işçilərinə, pasiyentlərə stasionar tibbi xidmət göstərən və bioloji materialın müayinəsi ilə məşğul olan laboratoriya işçilərinə, həmçinin Səhiyyə Nazirliyinin təcili tibbi yardım xidməti göstərən tibb işçilərinə, Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin tibb işçilərinə və koronavirus infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən digər səhiyyə müəssisələrinin tibb işçilərinin əməkhaqlarına ödənilən əlavənin müddəti sentyabr ayının 1-dək uzadılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamına əsasən Nazirlər Kabinetinin 2022-ci il 12 avqust tarixli Qərarı ilə Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısında dəyişiklik edilmiş, Naxçıvan Dövlət Xalça Muzeyinin adı dəyişdirilərək Kamil Əliyev adına Naxçıvan Dövlət Xalça Muzeyi adlandırılmışdır.

Nazirlər Kabinetinin eyni tarixli digər bir Qərarına uyğun olaraq "Naxçıvan Muxtar Respublikasında "Elektrik enerjisindən istifadə Qaydaları" təsdiq edilmişdir.

Qaydalara əsasən Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Xidməti muxtar respublikada tabeliyindəki vahid mərkəzdən idarə olunan müəssisələr, yüksəkgərginlikli ötürücü elektrik şəbəkələri, onların dispetçer idarəetmə vasitələrilə elektrik enerjisinin istehsalını, ötürülməsini, paylanmasını, əhalinin və digər istehlakçıların elektrik enerjisi ilə təchizatını yerinə yetirən və müvafiq sahədə dövlət nəzarətini, idarəetməni, tənzimləməni həyata keçirən dövlət orqanıdır.

Xidmət tərəfindən bütün istehlakçılara, o cümlədən məişət abonentlərinə elektrik enerjisinin verilməsi alqı-satqı müqaviləsinə əsasən həyata keçirilir. İstehlakçılar elektrik enerjisinin alqı-satqı müqaviləsində müəyyən edilmiş elektrik enerjisi istehlakının göstəricilərinə və məhdudiyyət rejimlərinə əməl etməli, elektrik enerjisindən səmərəsiz istifadə olunmasına, israfçılığa və təsərrüfatsızlığa yol verməməlidirlər.

Qaydalara görə məişət abonentinin elektrik enerjisi sərfinə görə hesablaşması üçün hər bir yaşayış sahəsi, o cümlədən yaşayış binalarındakı hər bir mənzil üzrə hesablaşma elektrik sayğacı quraşdırılır. Fiziki şəxs olan istehlakçıların sayğaclarla təchiz edilməsi, onların quraşdırılması və dəyişdirilməsi xidmətin hesabına həyata keçirilir. Yaşayış binalarının mənzilində, yaxud yaşayış evində quraşdırılmış hesablaşma elektrik sayğacının, o cümlədən üzərindəki plombların qorunmasına və onun işçi vəziyyətdə saxlanılmasına görə mənzil (yaşayış evinin) kirayəçisi və ya mülkiyyətçisi cavabdehlik daşıyır.

Xidmətin təqsirindən hesablaşma elektrik sayğacları zədələndikdə və ya qoşulma sxemi pozulduqda təmir, əvəzetmə və dövlət yoxlanışı onun vəsaiti hesabına yerinə yetirilir.

İstehlakçının, o cümlədən məişət abonentinin təqsirindən hesablaşma elektrik sayğacları zədələndikdə və ya qoşulma sxemi pozulduqda təmir, əvəzetmə və dövlət yoxlanışı onun hesabına yerinə yetirilir.

Eyni zamanda bu qaydalar Energetika Xidməti ilə müstəqil enerji istehsalçıları arasında qarşılıqlı münasibətləri tənzimləyir.

İnzibati xətalar qanunvericiliyinə uyğun olaraq pozuntuya yol vermiş fiziki şəxslərə, vəzifəli şəxslərə və hüquqi şəxslərə qarşı xidmət tərəfindən inzibati tənbeh növləri tətbiq edilir.

Qəbul olunan normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində *(www.huquqiaktlar.nakhchivan.az)* tanış olmaq mümkündür.

## Muxtar respublikada taxıl yığımı başa çatmışdır



Taxılçılığın inkişafı əhalinin etibarlı ərzaq məhsulları ilə təminatında mühüm əhəmiyyət kəsb edir. Muxtar respublikada bu sahənin inkişafı istiqamətində həyata keçirilən ardıcıl tədbirlər, o cümlədən torpaq mülkiyyətçilərinə subsidiyaların, mineral gübrələrin, güzəştli şərtlərlə kreditlərin, texnika və avadanlıqların verilməsi, meliorasiya və irriqasiya tədbirlərinin geniş vüsət alması bol məhsul istehsalına səbəb olmuşdur.

Görülmüş tədbirlərin nəticəsi olaraq 2022-ci ilin məhsulu üçün muxtar respublikada 64259 hektar sahədə əkin aparılmışdır ki, bunun da 33466 hektarını və ya 52,1 faizini taxıl sahəsi təşkil edib. 2021-ci illə müqayisədə taxıl əkini sahəsi 745 hektar artıb.

Taxıl əkini sahəsinin 21378 hektarında buğda, 12088 hektarında isə arpa əkilmişdir. Sahələrin 4038 hektarı və yaxud 12,1 faizi Şərur, 11094 hektarı və yaxud 33,1 faizi Babək, 1607 hektarı və yaxud 4,8 faizi Ordubad, 5711 hektarı və yaxud 17,1 faizi Culfa, 6056 hektarı və yaxud 18,1 faizi Kəngərli, 1527 hektarı və yaxud 4,6 faizi Şahbuz, 2441 hektarı və yaxud 7,3 faizi Sədərək rayonlarının, 992 hektarı və yaxud 2,9 faizi isə Naxçıvan şəhərinin payına düşüb.

Cari ildə taxıl sahələrindən 107418 ton məhsul tədarük olunmuşdur ki, bu da 2021-ci ilin göstəricisi ilə müqayisədə 4046 ton və yaxud 3,9 faiz çoxdur. Yığılan məhsulun 69945 tonu buğda, 37473 tonu isə arpadır. Məhsuldarlıq orta hesabla hər hektardan 32,1 sentner olmuşdur ki, bu da ötən illə müqayisədə 1,6 faiz çoxdur.

Əldə olunan məhsulun 16484 tonu və ya 15,3 faizi Şərur, 35308 tonu və ya 33 faizi Babək, 4663 tonu və ya 4,3 faizi Ordubad, 17007 tonu və ya 15,8 faizi Culfa, 18064 tonu və ya 16,8 faizi Kəngərli, 4081 tonu və ya 3,8 faizi Şahbuz, 8941 tonu və ya 8,3 faizi Sədərək rayonlarının, 2870 tonu və ya 2,7 faizi isə Naxçıvan şəhərinin payına düşüb.

*Şəhər və rayonlar üzrə taxıl yığımının bölgüsü, faizlə*




Tədarük olunan buğdanın bir kiloqramının cari ildə 60, arpanın isə 48 qəpikdən mərkəzləşmiş qaydada satın alınması taxıl əkininə və onun vaxtında itkisiz yığılmasına marağı daha da artırmışdır.

Məhsul istehsalçılarının kənd təsərrüfatı maşın və mexanizmləri ilə təchizatı davamlı olaraq yaxşılaşdırılır. "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 93 ədədi 2022-ci ilin yanvar-iyul aylarında olmaqla, ümumilikdə, 3495 ədəd müxtəlif adda kənd təsərrüfatı texnikası və texnoloji avadanlıq alınaraq muxtar respublikaya gətirilmişdir. 2022-ci ilin yanvar-iyul aylarında 66 müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və texnoloji avadanlıq lizinq yolu ilə icarəyə verilmiş, 39-u nağd yolla satılmışdır.

Kənd təsərrüfatı bitkilərinin məhsuldarlığının artırılmasında, keyfiyyətinin yüksəldilməsində və ərzaq təminatının yaxşılaşdırılmasında toxumçuluq xüsusi yer tutur. Muxtar respublikada keyfiyyətli toxum istehsalının yaradılması diqqətdə saxlanılmış, ötən dövrdə "Bərəkət Toxumçuluq" Məhdud Məsuliyyətli Cəmiyyəti yenidən qurulmuşdur. Bütün bunlar da keyfiyyətli və tələbata uyğun toxum sortlarının istehsalına və satışına, daxili tələbatın ödənilməsinə əlverişli şərait yaradacaqdır.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri iyulun 7-də taxılçılığın inkişafı və qarşıda duran vəzifələrlə bağlı keçirilən müşavirədə kənd təsərrüfatının, xüsusilə də taxılçılığın inkişaf etdirilməsinin əhəmiyyətini vurğulayaraq demişdir: ***"Muxtar respublikada ərzaq təhlükəsizliyi sahəsində həyata keçirilən tədbirlər öz bəhrəsini verib. Muxtar respublikada əsas kənd təsərrüfatı məhsullarına olan tələbat tamamilə, taxıla olan tələbat isə, əsasən, yerli istehsal hesabına ödənilir. Bu gün taxıla olan tələbatın tam şəkildə yerli istehsal hesabına ödənilməsi qarşıda duran əsas vəzifələrdəndir".***

Muxtar respublikada kənd təsərrüfatının, o cümlədən taxılçılığın inkişafına göstərilən hərtərəfli dövlət dəstəyi, qapalı suvarma şəbəkələrinin qurulması, yeni torpaqların əkin dövriyyəsinə qatılması taxılçılığa marağın artırılmasına və məhsuldarlığın daha da çoxalmasına şərait yaradacaqdır.

**Naxçıvan Muxtar Respublikası**
**Dövlət Statistika Komitəsinin mətbuat xidməti**

*İnkişaf edən bölgələrimiz*

# Dağlara söykənən dağ vüqarlı yurd yerimiz

## Şahbuzda dayanıqlı inkişaf təmin olunub

*Muxtar respublikamızda geniş vüsət alan quruculuq işləri daha da genişləndikcə yurdumuzun yaşayış məntəqələri öz simasını dəyişərək abadlaşır, gözəlləşir. Gərgin zəhmətlə ərsəyə gələn hər yeni bina, hər geniş yol sayəsində həyat daha da keyfiyyətli hala gəlir, torpağa bağlılıq dərinləşir. Bu baxımdan Şahbuz rayonunda da həyata keçirilən quruculuq işləri bu rayonun ən ucqar kəndlərinə qədər uzanıb gedərək quruculuğun sərhəd tanımadığını bir daha göstərməkdədir. Qədim tarixi qədər müasir inkişafı ilə də diqqətçəkən Şahbuz zəhmətkeş insanlarının əməyi ilə gündən-günə özünün yeni növrağına qovuşan, muxtar respublikamızın hər gün daha da gözəlləşən, abadlaşan dilbər bölgələrindəndir.*

Muxtar respublikamızda aparılan quruculuq işləri, əsasən, ucqarlardan başladığından bu rayon da uzun bir yeniləşmə dövrünə qədəm qoyub. Ümummilli liderimiz Heydər Əliyev ideyalarının muxtar respublikamızda uğurla həyata keçirilməsi bu rayonun da simasını büsbütün dəyişib və nəticədə, insanların qurub-yaratmaq əzmi daha da yüksəlib. Rayon ərazisində hökm sürən səliqə-sahman, görülmüş abadlıq işləri buraya üz tutanlarda heyranlıq yaradır və göz oxşayır. Məlumdur ki, muxtar respublikada həyata keçirilən tədbirlərin hamısı kompleks xarakter daşıyır və nəticədə, görülən işlər təkcə rayon mərkəzini deyil, ən ucqar dağ kəndlərini belə əhatə edir. Bu gün rayonun bütün yaşayış məntəqələri abadlıq işlərindən öz payını alaraq müasir görkəmə qovuşub.



Rayonda kompleks quruculuq tədbirləri 2022-ci ildə də uğurla həyata keçirilir. Cari ilin yanvar-iyun aylarında tikinti-quraşdırma işlərinə 10 milyon 441 min 200 manat və ya 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,2 faiz çox vəsait qoyulub ki, bu da geniş həcmdə inşaat işlərinin görülməsinə imkan verib. Tikinti-quraşdırma işlərinə qoyulan vəsaitin dəyəri bir il öncəyə nisbətən 0,9 faiz artaraq 9 milyon 538 min 400 manat təşkil edib. Rayonda ordu quruculuğu istiqamətində yaşayış binasının tikintisi başa çatdırılıb, əsgər yataqxanasının əsaslı təmiri davam etdirilir.





Əhalinin həyat səviyyəsinin yaxşılaşması fərdi yaşayış evlərinin tikintisinə də müsbət təsir göstərib, 2022-ci ilin yanvar-iyun aylarında rayonda əhalinin şəxsi vəsaiti hesabına, ümumilikdə, 3 min 751 kvadratmetr yaşayış sahəsi istifadəyə verilib.

Muxtar respublikamızda xüsusi diqqət göstərilən sahələrdən biri də təhsildir. Gənclərin müasir tələblər səviyyəsində təhsil alması, bilik və intellektual səviyyəsinin yüksəldilməsi, gələcəkdə bacarıqlı mütəxəssis kimi yetişməsi daim diqqətdə saxlanılır. Məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində məqsədyönlü tədbirlər aparılır. Şahbuz rayonunda da yeni məktəb binalarının tikintisinə xüsusi fikir verilir. Qürurvericidir ki, rayonda 23 tam orta məktəbdən hər biri müasir bina ilə təmin edilib. Hazırda Şahbuz şəhərində məktəbdənkənar təhsil müəssisəsi üçün binanın tikintisi davam etdirilir. Göstərilən belə diqqət və qayğının nəticəsidir ki, son illər ən ucqar dağ kəndlərindəki müasir standartlara cavab verən məktəblərdə də ali təhsil ocaqlarına qəbulun səviyyəsi getdikcə yüksəlir. Bu baxımdan 2021-2022-ci tədris ili də nailiyyətlərlə yadda qalıb. Belə ki, rayonun tam orta məktəblərini bitirən 123 məzunun 108-i ali, 13-ü isə orta ixtisas məktəblərinə sənəd qəbulunda iştirak edib. Buraxılış imtahanının nəticəsinə görə, 300 ballıq sistem üzrə 11 nəfər 200-dən yuxarı, 3 nəfər isə 250-dən yuxarı bal toplayıb. 1 məzun 289 bal toplayaraq muxtar respublika ikincisi olub.

Muxtar respublikamızda insanların sağlamlığına ciddi önəm verilir. Belə ki, son illər səhiyyə xidməti sahəsində inkişafa nail olunub, səhiyyə müəssisələrinin maddi-texniki bazası gücləndirilib, tibbi kadrların bilik səviyyəsi yüksəldilib. Yaradılan imkanlardan öz payını alan Şahbuz rayonunda da ötən illər ərzində bu sahəyə böyük vəsait qoyulub, rayon mərkəzindən ən ucqar kəndlərədək müasir səhiyyə ocaqları yaradılıb, onların hər biri müasir avadanlıqlarla təchiz olunub, maddi-texniki bazaları möhkəmləndirilib.

Həmçinin insanların səhiyyə xidmətlərindən rahat yararlanması üçün Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamına əsasən Şahbuzda da icbari tibbi sığorta tətbiq edilir. Bu məqsədlə görülən işlər vətəndaşlara göstərilən tibbi xidmətin keyfiyyətinin daha da artırılması, səhiyyə sisteminin dayanıqlı inkişafını, əhalinin və tibb işçilərinin sosial müdafiəsinin gücləndirilməsini və maddi-rifah halının yaxşılaşmasını təmin edib. Artıq rayon sakinləri hər hansı bir xəstəlik olduğu halda uzun yol qət edib şəhərə üz tutmur, onların sağlamlığı üçün yaradılmış müasir səhiyyə ocaqlarında müalicə alırlar.

Aqrar sahənin üstünlük təşkil etdiyi Şahbuz rayonunun qədim tarixə malik əkin-biçin, arıçılıq, heyvandarlıq, maldarlıq, quşçuluq ənənələri var. Son illərdə rayonda fermerlərə göstərilən dövlət qayğısı, subsidiya və gübrələrin verilməsi zəhmət adamlarını torpağa daha sıx bağlayıb. İldən-ilə məhsuldarlığın daha da yüksəldiyi Şahbuzda 2022-ci ilin məhsulu üçün 2769 hektar sahədə əkin aparılıb ki, bunun da 1641 hektarını dənli və dənli-paxlalı bitkilər (qarğıdalısız), 2 hektarını dən üçün qarğıdalı, 7 hektarını dən üçün günəbaxan, 170 hektarını tərəvəz bitkiləri, 12 hektarını ərzaq üçün bostan bitkiləri, 443 hektarını kartof, 132 hektarını cari ildə əkilmiş çoxillik otlar, 2 hektarını birillik otlar, 360 hektarını əvvəlki illərdə əkilmiş çoxillik otlar təşkil edir.

Şahbuz sakinlərinin əsas məşğuliyyətlərindən olan heyvandarlığın inkişafının davamlı olaraq dəstəklənməsi burada iribuynuzlu malqaranın, xırdabuynuzlu heyvanların baş sayının artmasına müsbət təsir göstərib. Bunun nəticəsidir ki, hər həftənin şənbə və bazar günləri Naxçıvan şəhərində keçirilən kənd təsərrüfatı məhsullarının satış-yarmarkalarında rayon təsərrüfatçılarının istehsal etdikləri ağartı məhsulları piştaxtaları bəzəyir.

2022-ci ilin yanvar-iyun aylarında rayonda diri çəkidə 1513 ton ət, 9351 ton süd, 9871 min ədəd yumurta, 152,9 ton yun istehsal edilib. 2021-ci ilin yanvar-iyun ayları ilə müqayisədə ət istehsalı 1,4 faiz, süd istehsalı 1,3 faiz, yumurta istehsalı 9,8 faiz, yun istehsalı 1 faiz artıb.

Rayonda digər sahələr də diqqətdə saxlanılıb. Meliorasiya və irriqasiya sistemlərinin yeniləşdirilməsi, sosial-mədəni və iqtisadi inkişafın mühüm sahələrindən biri olan yol tikintisi, yeni yolların çəkilişi və mövcud yolların təmiri, informasiya və rabitə sahəsində yeni texnologiyaların tətbiqi, əhaliyə göstərilən rabitə xidmətinin keyfiyyətinin daha da yüksəldilməsi, istehlakçıların fasiləsiz elektrik enerjisi ilə təminatı, transformator yarımstansiyalarının, elektrik verilişi xətlərinin təmiri və yeniləşdirilməsi işləri aparılıb. Əhalinin təbii qazla təmin olunması istiqamətində də müvafiq işlər görülüb. Rayonda iqtisadiyyatın bütün sahələrinin, eləcə də fərdi sahibkarlığın inkişaf etdirilməsi yeni iş yerlərinin açılması ilə nəticələnib, əhalinin rifah halının yaxşılaşmasına, onların məşğulluğunun təmin olunmasına müsbət təsir göstərib.

*Bəli, muxtar respublikamızın digər bölgələri kimi, Şahbuz rayonu da inkişafın ən yüksək mərhələsindədir. Günü-gündən gözəlləşən Şahbuz rayonunda inşa edilən bir-birindən yaraşıqlı binalar, salınan rahat yollar, yaşıllıqlar hər bir şahbuzlunu qəlbən sevindirir, bölgənin müasirləşməsi, yeniləşməsi, insanların rahatlığı üçün atılan addımların bəhrələrini hər bir sakin öz həyatında görür.*

**Pərviz HACILI**
***"Oğuz səsi" qəzetinin redaktoru***

*Muxtar respublikada xarici iqtisadi əlaqələrin genişləndirilməsinə diqqət göstərilməsi, ixracın stimullaşdırılması sahəsində qəbul edilən qərarlar, sahibkarlığa sistemli dövlət dəstəyi istehsal olunan məhsulların ixrac imkanlarının artmasına, iqtisadi əlaqələrin genişlənməsinə, yerli məhsulların dünya bazarlarında daha geniş çeşiddə təmsil olunmasına zəmin yaradıb. Təsdiq edilmiş Dövlət proqramlarının uğurla yekunlaşması və icrasının davam etdirilməsi, eləcə də həyata keçirilən davamlı islahatlar nəticəsində muxtar respublika iqtisadiyyatının möhkəm təməli yaradılıb və sosial-iqtisadi inkişafın dinamikliyi təmin edilib.*

# Qida məhsullarının beynəlxalq tələblərə uyğun yoxlanılması davam etdirilir

Bu gün 400-dən çox sənaye sahəsinin fəaliyyət göstərməsi nəticəsində Naxçıvan Muxtar Respublikası sürətlə inkişaf edən aqrar-sənaye diyarına çevrilib. Hazırda muxtar respublikada 384 növdə məhsul istehsal olunur ki, bunun da 127 növü ərzaq, 257 növü isə qeyri-ərzaq məhsullarıdır. Əhalinin 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbatı tamamilə yerli imkanlar hesabına ödənilir. Bu da daxili bazarın qorunması, xaricə valyuta axınının qarşısının alınması, idxaldan asılılığın aradan qaldırılması və istehlakçı hüquqlarının qorunması baxımından əhəmiyyətlidir.

Son illər Naxçıvanda uğurla həyata keçirilən sosial-iqtisadi islahatlar da istehlakçı hüquqlarının qorunmasına, əhali tələbatının daha keyfiyyətli məhsullarla ödənilməsinə hərtərəfli şərait yaradıb.

Bu baxımdan Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin nəzdində fəaliyyət göstərən "İstehlak Mallarının Ekspertizası Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin Mərkəzi Qida Sınaq Laboratoriyası işini günün tələblərinə uyğun şəkildə davam etdirir. Məhz bunun nəticəsidir ki, 2022-ci ilin ötən dövrü ərzində 566 halda hüquqi və 779 halda fiziki şəxslər tərəfindən daxil olmuş 58 mal çeşidini əhatə edən 342 halda səyyar və 1345 halda mal nümunəsi laboratoriya analizindən keçirilib. Aparılmış laboratoriya təhlilləri, əsasən, 1048 yerli istehsal və 297 idxal məhsullarını əhatə edib. Nəticədə, 1339 halda məhsulun keyfiyyət və təhlükəsizlik göstəricilərinin normativ-texniki sənədlərin tələblərinə cavab verdiyi, 6 halda mal nümunəsinin keyfiyyət və təhlükəsizlik göstəricilərinin aşağı olduğu müəyyən edilib.



Muxtar respublikada istehsal olunan məhsulların ixracı məqsədilə "Ləzzət Biskvit və Şokolad Fabriki", "Gəmiqaya Daş Məhsulları Sənaye Kompleksi", "Cahan Tabak Beynəlxalq", "Düdəngə-Şərab", "Gəmiqaya Taxıl Məhsulları", "Ordubad Quşçuluq", "Gəmiqaya Plastmas Kapsul və Qapaq", "Nehrəm Sənaye", "Reges İnşaat Consulting Company", "Gəmiqaya Tikinti Materialları İstehsalat Kompleksi", "Sumqala Tikinti-Təchizat", "Naxçıvan Sement Zavodu" Məhdud Məsuliyyətli Cəmiyyətlərinə, Babək "Sirab" Açıq Səhmdar Cəmiyyətinə və fiziki şəxs Ziyafəddin Məmmədova müvafiq mənşə sertifikatları verilib. 2022-ci ilin ötən dövrü ərzində 120 halda mənşə sertifikatının verilməsi təmin edilib. Bunlardan 85-i CT-1, 35-i isə ümumi forma mənşə sertifikatlarıdır.

"İstehlak Mallarının Ekspertizası Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin Mərkəzi Qida Sınaq Laboratoriyası regionda istehsal edilən və ya muxtar respublikaya idxal olunan qida məhsullarının beynəlxalq tələblərə uyğun yoxlanılmasını mütəmadi olaraq davam etdirəcəkdir.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

# Yeni ailə təsərrüfatı yaradılıb

Şərur rayonunda ailə təsərrüfatlarının fəaliyyətinin genişləndirilməsinə, ekoloji baxımdan saf, təmiz kənd təsərrüfatı məhsullarının istehsalına yaradılan şərait yeni təsərrüfatların formalaşmasına səbəb olub. Hazırda rayonda 425 nümunəvi ailə təsərrüfatı fəaliyyət göstərir.



Şərur rayonunun Arpaçay kəndindən olan təcrübəli təsərrüfatçılar Mirağa Bağırov və Çiçək Bağırova ailə təsərrüfatı yaradıblar. Ailə təsərrüfatında, əsasən, böyürtkən istehsalına üstünlük verilir. Onlar böyürtkəni yığaraq mürəbbəsini və kompotunu hazırlayır, satışa çıxarırlar.

Mütəxəssislərin fikrincə, böyürtkən kompotu ishal xəstəliyində, qurudulmuş yarpaqları isə ağızdakı yaralar üçün faydalıdır. Böyürtkənin şirəsi qan təzyiqini nizamlayır, ayaqlardakı şişləri aradan qaldırır, ağız, dil və diş əti iltihablarına, göz zəifliyinə qarşı faydalı təsir göstərir, maddələr mübadiləsini sürətləndirir.

Ailə təsərrüfatı başçısı Mirağa Bağırov deyir ki, bu meyvənin tinglərini qardaş ölkə Türkiyədən gətirib və həyətində əkərək çoxaldıb. Hazırda ting satışı da həyata keçirir. Ailə bütün dolanışığını istehsal etdikləri məhsulların satışı ilə ödəyir. Təsərrüfatda yetişdirilən meyvələr, ilk növbədə, Naxçıvan və Şərur şəhərlərində bazarlara çıxarılır. Məhsullar keyfiyyətli və qiymətləri münasib olduğundan alıcılar tərəfindən rəğbətlə qarşılanır. Ailə təsərrüfatçıları ötən il 500 kiloqram məhsul istehsal ediblər. Bu il isə məhsul istehsalını 600-700 kiloqrama qədər çatdıracaqlarını düşünürlər. Təsərrüfat işlərində Mirağa Bağırovun ailə üzvləri də ona yaxından köməklik edirlər.

Son illərdə Şərurun əkinçilik, tərəvəzçilik və meyvəçilik üzrə ixtisaslaşan ailə təsərrüfatları muxtar respublika iqtisadiyyatına layiqli töhfələrini verir, ailə bizneslərini daha da genişləndirirlər. Təbii ki, bütün bunlar dövlətimizin aqrar sahənin inkişafına yaratdığı əlverişli imkanlar hesabına mümkün olur.

**Heydər MƏMMƏDOV**

2022-ci il
“Şuşa ili”dir

# “Şuşa ili” Azərbaycan ədəbi fikrinin inkişafına töhfə kimi

*Şuşa şəhəri Azərbaycanın döyünən ürəyi, milli-mədəni məsələlərin ilkin olaraq ortaya çıxdığı diyar kimi nadir sənət inciləri ilə yanaşı, əsrarəngiz təbiəti ilə bir vaxtlar işğal altında olan torpaqlarımıza açılan pəncərə rolunu oynadığı üçün son dərəcə böyük əhəmiyyətə malikdir. Prezident cənab İlham Əliyevin 2022-ci ili “Şuşa ili” elan etməsi Şuşanın tarixi, ədəbiyyatı, incəsənəti və başqa sahələri üzrə yeni elmi, monoqrafik əsərlərin ərsəyə gəlməsinə şərait yaratdı. 28 illik işğaldan azad edilmiş Şuşa şəhərinin keçmişinin və bu gününün öyrənilməsi ədəbiyyatımızda da prioritet vəzifədir. Şuşa qələbəmizin möhürüdür. Şuşa Azərbaycan ədəbiyyatının formalaşmasında xüsusi rola malik bir çox görkəmli sənətkarın doğulub boya-başa çatdığı, yaşayıb-yaratdığı məkandır. Mir Mövsüm Nəvvab, Molla Pənah Vaqif, Xurşidbanu Natəvan, Əbdürrəhim bəy Haqverdiyev, Nəcəf bəy Vəzirov, Qasım bəy Zakir, Yusif Vəzir Çəmənzəminli və bir çox başqa dəyərli simalar bu torpağın bağrından qopub gəlmiş, öz fitri istedadları ilə Azərbaycanın elmində, ədəbiyyatında, musiqisində yeni nəzəri fikrin formalaşmasında böyük rol oynamışlar.*



Bu gözəl diyar bir çox tanınmış sənətkar yetişdirmişdir. Molla Pənah Vaqif (1717-1797) öz dövrünün böyük şairi, mütəfəkkiri və dövlət xadimi olmuşdur. XVIII əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsinin yaradıcılığı ilə xalq şeirinin təsiri yazılı ədəbiyyatımızda üstünlük qazanır. Vaqif şeiriyyətinin mühüm hissəsi gözəlliyin təsvirinə həsr olunmuşdur. Şair gözəlləri təbiətin əsrarəngiz gözəllikləri və təsvirləri ilə özünəməxsus şəkildə vəsf edir:

*Zülfləri sünbüldür, yanağı lalə,*
*Baxışı tən edir vəhşi qəzalə,*
*Gözləri məstanə, ağzı piyalə,*
*Gərdəni minadır mənim sevdiyim*

M.P.Vaqif dilinin ən üstün əhəmiyyəti xəlqiliyidir. Vaqif dilinin xəlqiliyi folklor dilinin, adi danışıq dilinin ədəbi-bədii dilə gətirilməsi ilə ölçülür və bu, ədəbiyyatımızda yeni və çox parlaq mərhələnin əsasını qoymuşdur.

Məlum olduğu kimi, 1795-ci ildə Ağa Məhəmməd şah Qacar Şuşaya hücum etmiş, lakin Şuşa qalasını ala bilməmişdir. 1797-ci ildə ikinci dəfə Şuşaya hücum edən şah Qacar Vaqifi həbs etdirərək zindana saldırmışdır. Sui-qəsd nəticəsində Ağa Məhəmməd şah Qacar öldürüldükdən sonra Vaqif azadlığa çıxmışdır. Həmin vaxt Vaqif hisslərini dostuna belə çatdırır:

*Ey Vidadi, gərdişi-dövrani-kəcrəftarə bax!*
*Ruzigarə qıl tamaşa, karə bax,*
*kirdarə bax!*

Şahın ölümünü fürsət bilən İbrahim xanın qardaşı oğlu Məhəmməd bəy Cavanşir hakimiyyəti ələ keçirmişdir. Bir qədər sonra 1797-ci ildə o, Vaqifi oğlu Əliağa ilə birlikdə edam etdirmişdir.

Yüksək peşəkarlıqla hazırlanmış, qədim Şuşanın memarlıq üslubuna yenilik gətirmiş Vaqif türbəsinin tikintisi 1982-ci ildə başa çatdırılıb. 1982-ci il yanvarın 14-də ümummilli lider Heydər Əliyevin iştirakı ilə Molla Pənah Vaqif türbəsinin və Şuşada Poeziya Evinin təntənəli açılışı olub. O qarlı gündə keçirilən açılış mərasiminə Şuşaya tanınmış, istedadlı sənət adamları toplaşıb. Həmin gün milli mədəniyyət və sənət bayramına çevrilib. Azərbaycanın ozamankı rəhbəri ulu öndər Heydər Əliyev hər il Vaqif Poeziya Günlərinin keçirilməsi barədə göstəriş verib. Beləliklə, həmin tarixdən etibarən hər il Vaqif Poeziya Günləri təşkil olunub. Tədbirin proqramına şeir gecələri ilə yanaşı, konsertlər də daxil edilib. Ənənəyə çevrilən bu poeziya günləri hər il avqust ayında şairin Vətəni Qazaxdan başlayıb Şuşada yekunlaşıb.

Şuşanın Azərbaycanın ictimai-siyasi, ədəbi-mədəni həyatında tutduğu əhəmiyyətli rol daim düşmənlərimizin diqqət mərkəzində olmuş, murdar xislətli ermənilər bu əsrarəngiz diyarın abidələri ilə yanaşı, təbiətinə də ağır zərbələr vurmuşlar.

Ədəbiyyatşünas alim Tahirə Məmməd yazır: “Şuşanın ərazisini yox, həm də mədəniyyətini mənimsəmək iddiasında olan mənfur qonşularımız heç bir əsas və fakt olmadan XIX əsrdə Şuşada mədəniyyətin inkişafının belə onlara aid olması təsəvvürünü formalaşdırmağa çalışırlar. Xarici dövlətlərdən yardım istəyib yalvaran erməni liderləri XIX əsrdə Şuşanın mədəniyyət mərkəzi olduğunu qeyd edərkən dünya ictimaiyyətində yanlış rəy formalaşdırmağa çalışırlar. Şuşanın onlara heç bir dəxli olmamasına tutarlı cavablardan biri də orada yaranan ədəbiyyat, sənət inciləri, XIX əsrin ədəbi məclisləridir. Mənbələrdə ən çox adıçəkilən Şuşa məclisləri “Məclisi-üns” və “Məclisi-fəramuşan”dır”.

Hələ ötən il, mayın 7-də Şuşanın Mədəniyyət Paytaxtı kimi bəyan edilməsi də Şuşa ilə bağlı bir sıra məqamlara geniş kontekstdə nəzər yetirməni yenidən gündəmə gətirdi. Bu labüdlüyə iki mühüm nümunəni Prezident özü göstərdi. “Xarıbülbül” musiqi festivalı və Vaqif Poeziya Günlərinin təşkili Şuşanın ehtiva etdiyi zəngin mədəniyyətin bütün dünyaya uca səslə bəyanı idi”.




Azərbaycan ədəbiyyatında Vaqif mərhələsi özündən sonrakı ədəbiyyata stimul oldu, bir növ körpü rolunu oynadı. 1784-cü ildə Qarabağ mahalının Şuşa şəhərində bəy ailəsində dünyaya gələn Qasım bəy Zakirin satirik cərəyanın yaranmasında müstəsna xidmətləri mövcuddur. Onun lirikası klassik və aşıq şeiri üslubunda qələmə aldığı qoşma, gəraylı, təcnis, qəzəl, müxəmməs, müstəzaddan ibarətdir.

*Badi-səba, söylə mənim yarıma,*
*Gözəllər çıxıbdır seyranə, gəlsin!*
*Təğafül etməsin işrət çağıdır,*
*İçilir hər yerdə peymanə, gəlsin!*

Böyük şair, görkəmli satirik Qasım bəy Zakirin maarifçilik fəaliyyəti, sonralar onun xələfləri, o cümlədən dostu Mirzə Fətəli Axundov tərəfindən davam və inkişaf etdirilmişdir.

Qasım bəy Zakir ilə yanaşı, Şuşada yaşayıb-yaratmış Baba bəy Şakir Azərbaycan ədəbiyyatında realist-ictimai satirik poeziyanın əsas yaradıcılarından olmuş, Xan qızı, şairə Xurşidbanu Natəvan Füzuli poeziyasından bəhrələnmiş, şairin qəzəllərindəki incə lirizm, dərin məzmun onun bir sənətkar kimi tanınmasında mühüm rol oynamışdır. Natəvan yaradıcılığa, təxminən, XIX əsrin 50-ci illərindən başlamış, “Xurşid” imzası ilə yazdığı şeirlərinin əksəriyyəti itib-batmış, 1870-ci ildən etibarən şairə özünə “Natəvan” təxəllüsü götürərək dərin məzmunlu qəzəlləri ilə yaddaşlarda silinməz izlər qoymuşdur. Onun 227 səhifədən ibarət 1886-cı ildə “Gül dəftəri” adlı məşhur albomunda on üç şeiri, naturadan çəkdiyi təsvirlər və müasirlərinin lirik parçaları yer almışdır. Natəvanın yaradıcılığında həzin kədər notları üstünlük təşkil edir:

*Qoyubdur intizarında, neçin gəlməz,*
*neçin gəlməz?*
*Həmişə ahü zarında, neçin gəlməz,*
*neçin gəlməz?*
*Üzüldüm karivanımdan, əl üzdüm*
*xanimanımdan,*
*Fələk incir fəqanımdan, neçin gəlməz,*
*neçin gəlməz?*

Şuşada yaranan ədəbiyyat və mədəniyyət yuvası olan ilk məclislər Azərbaycan ictimai-mədəni fikrinin formalaşmasına xidmət edən bir çox ziyalının ortaya çıxmasında böyük rol oynamışdır. Sonralar Xan qızı Xurşidbanu Natəvanın (25 il) başçılıq etdiyi, Mirzə Rəhim Fəna tərəfindən 1864-cü ildə əsası qoyulan “Məclisi-üns” o dövrdə çox parlaq işlərə imza atıb. Məclisin istedadlı üzvləri arasında Mirzə Rəhim Fəna, Hacı Abbas Agah, İsmayıl bəy Dəruqi, Məşədi Nəsir Lövhi, Mirzə Ələsgər Növrəs və başqaları olub.

1872-ci ildə Mirzə Möhsün Nəvvabın başçılıq etdiyi “Məclisi-fəramuşan”ın ətrafında toplaşan Şuşa şairləri – Abdulla bəy Asi, Fatma xanım Kəminə, Mirzə Əbdül Şahin, Molla Saleh Bülbül, Bəhram bəy Fədai və başqaları o dövrün tanınmış simaları idi.

*Şuşa Azərbaycanın mədəniyyət beşiyi və eyni zamanda hər bir azərbaycanlı üçün müqəddəs məkandır. Bu torpaq Azərbaycan ictimai, ədəbi, mədəni mühitinin formalaşmasında misilsiz xidmətlər göstərən ziyalıların yurdudur. Prezident cənab İlham Əliyevin 2022-ci ili “Şuşa ili” elan etməsi ilə bağlı Sərəncamı Şuşa ədəbi mühitinin daha dərindən araşdırılması və bu tədqiqatların dünya elminə inteqrasiyası baxımından çox mühüm addımdır.*

**Əkrəm HÜSEYNZADƏ**
***filologiya üzrə fəlsəfə doktoru, dosent***

---

Gəncliyimiz, gələcəyimiz

# Cəmiyyətin aparıcı qüvvəsi gənclərdirsə, deməli, inkişaf da onlarla bir addımlayır

*Gələcəyimiz naminə həyata keçirilən təhsil islahatlarının nəticəsi, sözsüz ki, özünü ali təhsil müəssisələrinə qəbul imtahanlarında göstərir. Ümumtəhsil məktəblərinin məzunlarının həm buraxılış imtahanlarında, həm də ali və orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanlarında yüksək nəticələr əldə etməsi uğurlu təhsil islahatlarının nəticəsidir. Muxtar respublikamızın bütün yaşayış məntəqələrində müasir təhsil infrastrukturunun qurulması təkcə paytaxt şəhərimizin deyil, qəbul imtahanlarında iştirak edən və qəbul olunanlar arasında dağ və sərhəd kəndlərindən olan abituriyentlərin də sayını artırıb. Bunu Ordubad rayonunun Nüsnüs kənd tam orta məktəbinin timsalında da görmək olar. Belə ki, qəbul imtahanlarının birinci mərhələsində yüksək nəticə göstərən məktəbin məzunları Ceyran və Pərvin Yusifli bacıları və Əvəz Fətullayev də etimadı doğruldublar.*

Builki qəbul imtahanlarında III ixtisas qrupu üzrə 647 bal toplayaraq rayon ikincisi olan ***Ceyran Yusifli*** 2004-cü il aprelin 13-də Nüsnüs kəndində anadan olub. 2011-ci ildə Nüsnüs kənd tam orta məktəbinin ibtidai sinfinə qədəm qoyduğu andan ailədə görüb-götürdüyü təhsil mədəniyyəti Ceyran və Pərvin bacılarını elmin sirlərinə yiyələnməyə daha da sövq edib.



Ataları fizik, anaları riyaziyyatçı olsalar da, bacılar Azərbaycan dili, ədəbiyyat, tarix fənlərinə dərin maraq göstəriblər. Elə həmin illər ərzində məktəbdə və rayonda keçirilən bilik yarışlarında fəallıq göstərməyə başlayıblar. Ceyran VII sinifdə muxtar respublika üzrə Azərbaycan dili və ədəbiyyatı fənnindən keçirilən olimpiadada 1-ci yeri tutaraq diplomla, IX sinifdə Azərbaycan Respublikası üzrə tarix fənnindən keçirilən olimpiadada 3-cü yeri tutaraq “Bürünc” medalın, X sinifdə oxuyarkən respublika üzrə təşkil edilən tarix olimpiadasında 1-ci yerin, həm də “Qızıl” medalın sahibi olub. Məktəbdə keçirilən imtahanlarda həmişə 600 baldan yuxarı nəticə göstərib. Məktəb illərində idmanla məşğul olub. Tennis, voleybol, şahmat oynayıb. 2005-ci il oktyabrın 3-də Nüsnüs kəndində anadan olan ***Pərvin Yusifli*** deyir ki, tədris illəri dövründə müxtəlif tədbirlərdə, o cümlədən bilik yarışmalarında iştirak edib, məktəbdaxili tədbirlərin aparıcısı, iştirakçısı, təşkilatçısı olub. Naxçıvan şəhərində təşkil edilən fənn olimpiadasında ingilis dili fənni üzrə muxtar respublikada I yeri tutaraq diploma layiq görülüb. Bu il isə muxtar respublika üzrə keçirilən Azərbaycan dili və ədəbiyyatı fənni üzrə təşkil edilən olimpiadada III yerin qalibi olaraq “Bürünc” medal qazanıb.



Qeyd edək ki, hər iki bacı ümumi orta təhsilini fərqlənmə attestatı ilə başa vurub. Eyni zamanda tam orta təhsillərini xüsusi nümunəli attestatla bitiriblər, nailiyyətlərinə görə “Qızıl” nişana layiq görülüblər. Pərvinin “Cəlil Məmmədquluzadənin hekayələri” mövzusunda esse yazısı muxtar respublikada I yerə layiq görülüb. Ziyalı ailəsində böyümüş Pərvin ingilis dilinə həmişə böyük maraq göstərib. Builki qəbulda 604 bal toplamaqla ailəsinin, valideynlərinin fəxrinə çevrilib.

Söhbət açdığımız məzunlardan biri də I ixtisas qrupu üzrə 644 bal toplayan ***Əvəz Fətullayev***dir. O, 2004-cü il sentyabrın 18-də Nüsnüs kəndində anadan olub. 2011-ci ildə Nüsnüs kənd tam orta məktəbinə qəbul edilən Əvəz 2022-ci ildə sözügedən məktəbi “Qızıl” nişanla başa vurub. O, dərslərini həmişə yüksək qiymətlərlə oxuyub, dəqiq fənlərə böyük maraq göstərib. Əvəz fəallığı ilə həmyaşıdlarından seçilib. O, I ixtisas qrupu üzrə qəbul imtahanlarına ciddi hazırlaşıb, biliklərə dərindən yiyələnib. Bu il keçirilən qəbul imtahanlarının hər iki mərhələsində I ixtisas qrupu üzrə 644 bal toplayıb. Əvəz rayon və muxtar respublika olimpiadalarında, intellektual yarışlarda iştirak edib. Ümumi orta təhsilini fərqlənmə attestatı ilə başa vurub. Eyni zamanda isə tam orta təhsilini xüsusi nümunəvi attestatla bitirib. Sınaq imtahanlarında həmişə yüksək nəticələr göstərib. “Oxunması zəruri olan kitabların Siyahısı”nda olan kitablarla bağlı keçirilən müzakirələrdə iştirak edib, inşa-yazı müsabiqələrində bir sıra uğurlar əldə edib. Əsasən, dedektiv janrında yazılan kitabların mütaliəsinə üstünlük verən Əvəzin bilik və dünyagörüşünü artırmaq üçün özünə ən yaxın dost bildiyi kitabları sevməyi olub. Müasir dövrdə geniş yayılmış müxtəlif informasiya texnologiyaları vasitələrindən səmərəli istifadə edən Əvəz deyir ki, uğur əldə etmək üçün mütləq hədəfin olmalıdır və qarşıya real məqsəd qoymalısan. İnam və hədəf olandan sonra, məncə, heç bir çətinlik insana mane ola bilməz. Təbii ki, bunun üçün təhsil mühüm şərtlərdən biridir. Yaxşı oxumalısan ki, gələcəkdə çalışacağın sahənin incəliklərini dərindən biləsən.



Əvəz deyir ki, bu gün muxtar respublikamızda təhsilin inkişafı üçün böyük işlər görülür. Hər il yeni məktəb binaları tikilir, təhsil ocaqları müasir tədris avadanlıqları ilə təmin olunur. Mənim təhsil aldığım Nüsnüs kənd tam orta məktəbində də tədris üçün hərtərəfli şərait var. Yəni müasir dövrdə şagirdlərin yaxşı oxumaması üçün heç bir səbəb yoxdur. Həmçinin şagirdlərin biliyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilir. Bu il tam orta təhsili nailiyyətlərlə başa vuran bir qrup məzun “Qızıl” və “Gümüş” nişanlarla təltif olunub. Mən də onlardan biriyəm – “Qızıl” nişana layiq görülmüşəm. Bu həyatda qarşıma qoyduğum məqsədlərdən biri idi ki, çatdım. Gələcəkdə digər məqsədlərim üçün səylə çalışıb, Vətənə layiqli övlad olmağa çalışacağam.

*Sevindirici haldır ki, muxtar respublikamızda təhsilə, elmə böyük əhəmiyyət verən gənclərimiz ilbəil çoxalır. Hər il ali təhsil müəssisələrinə qəbul olunan məzunlar içərisində 500-700 arası bal toplayanların sayı artır. Bu isə hər birimizin gələcəyə nikbin baxmağına inam yaradır. Çünki cəmiyyətin gələcək tərəqqisi ağıllı, bilikli gənclərin əlindədir.*

✍ **Gülcamal TAHİROVA**

***Fikrimcə, incəsənət insanın psixi dünyasının əksidir. Başqa sözlə, sənət mentalitetin, duyğunun, sosial-mədəni həyatın müxtəlif simvollarla əks olunmasıdır. Qızıl, gümüş və qiymətli daşlardan ərsəyə gələn zərgərlik nümunələri də ta qədim zamanlardan bu günədək gözəl ənənələrin yaşadılmasına kömək edib. Metalişləmə sənətinin başlıca sahələrindən olan zərgərlik Naxçıvanda geniş yayılıb. Tədqiqatçılar Azərbaycan zərgərlik sənətinin ilk mərhələsi kimi muxtar respublikamızın Kültəpə yaşayış məntəqəsindən və Gəncəçay vadisindən tapılmış bəzək nümunələrini göstərirlər.***

*Milli dəyərlərimizi öyrənək və yaşadaq*

## Zərgərlik sənətinin gənclərimiz tərəfindən yaşadılması milli-mənəvi dəyərlərimizə sadiqlik nümunəsidir



Arxeoloji materiallardan aydın olur ki, Erkən Tunc dövründə metalişləmənin inkişafı zərgərliyə də təsir edib, sənətkarlar tuncdan üzük, bilərzik və digər bəzək əşyaları düzəldiblər. Sonralar sənətkarlığın müstəqil sahəyə çevrilməsi nəticəsində zərgərlik daha da inkişaf edib, əşyaların çeşid və keyfiyyəti artıb. Qızılburun, Şahtaxtı, Çalxanqala, II Kültəpə abidələrindən tapılan Orta Tunc dövrünə aid müxtəlif formalı bilərziklər, halqalar, sırğalar, muncuqlar və digər bəzək əşyaları bunu sübut edir. Naxçıvan zərgərləri tərəfindən düzəldilmiş yerli zərgərlik məktəbinə məxsus bəzək əşyalarından bir qrupunun (qarabatdaq, çəçik, silsilə, sərmə, gərdənbağı, sinəbənd, gərdənbənd) şöhrəti dillər əzbəri olub, öz gözəlliyi ilə dünyada tanınıb. Zərgərlik sənəti sonrakı dövrlərdə də öz inkişafını davam etdirib, tarixin bütün mərhələlərində müəyyən dəyişikliyə uğrayıb və zənginləşib. Bu, özünü daha çox zinət əşyalarının formalarında və bəzəklərin müxtəlifliyində büruzə verib.

Sevindiricidir ki, bu gün də muxtar respublikamızda bu sənət sahəsi yaşadılır, hətta zərgərliklə məşğul olan gənclərimizin sayı artır. Eldar Hüseynov da belə gənclərimizdən biridir. Onun 2021-ci ilin dekabr ayında Naxçıvan Dövlət Universitetində hazırladığı qızıl aksesuarları və zərgərlik məmulatlarından ibarət fərdi sərgisi də təşkil edilib. O, 2001-ci il sentyabrın 25-də Naxçıvan şəhərində anadan olub, Naxçıvan şəhər 10 nömrəli tam orta məktəbi bitirib. Ali təhsilini Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin Rəngkarlıq ixtisası üzrə alıb. Ta qədimlərdən məşğuliyyət növü olan, milli-mənəvi dəyərlərimizi özündə yaşadan zərgərlik sənətini mənimsəmək, zərgərlik nümunələri hazırlamaq, fikrimcə, güclü qabiliyyət və geniş düşüncə tələb edir. Elə müsahibimin bu sahəni seçməsi heç də təsadüf olmayıb. *Səndə zərgərliyə maraq necə yarandı?* – sualıma müsahibim belə cavab verir: “12 yaşımdan atamın təşəbbüsü və öz istəyimlə bu sənətlə maraqlanmağa başladım və Naxçıvandan olan usta Orxan Mikayılovla tanış oldum. O, mənə bu sənətin dərinliklərini, sirlərini öyrətdi. Sənətin sirləri, gözəlliyi məndə zamanla böyük istək və sevgi yaratdı. İlk əl işim olaraq tək qaşlı üzük hazırlamışam. Bundan başqa, bir çox bəzək aksesuarları düzəltmişəm. Böyük dövlət xadimi, ulu öndərimiz Heydər Əliyevin imzasını qızıldan hazırlamaq həm böyük məsuliyyət, həm də ikiqat qabiliyyət tələb edirdi. Mən bunu hazırlamaqdan qürur duydum.

– *Zərgərlik əşyalarını harada və necə hazırlayırsan?.*

– Qızıl dükanında və evdə hazırlayıram. Lazım olan qədər qızıl və gümüş götürüb körük adlanan alətlə əridib, rəcəyə tökür, valsdan keçirib istənilən forma verirəm və sonra onun üzərində işləyirəm. Müştərilərin istədikləri növdə bəzək aksesuarları hazırlayıb onlara təqdim etmək mənə də zövq verir. Bu sənətin incəliyini, zərifliyini, çalışıram ki, hazırladığım əşyalarda göstərim. Qeyd edim ki, təhsil aldığım müddətdə qrafika sənəti ilə ciddi məşğul olmağım bu sahədə biliklərimi artırmağa çox kömək oldu. Müxtəlif eskizlər etməklə yanaşı, zərgərlik işlərində öyrəndiklərimi tətbiq etdim, uğurlu da alındı. 44 günlük şanlı Vətən müharibəsində əldə etdiyimiz Böyük Zəfərlə bağlı hazırladığım Xarıbülbül sancağı mənim üçün ən dəyərli zərgərlik nümunələrindən biridir.

Müsahibim yaddaqalan fərdi sərgisindən danışaraq bildirdi ki, ötən il dekabrın 14-də Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev və İncəsənət fakültəsinin dekanı Cavid İsmayılovun təşəbbüsü ilə fərdi sərgisi keçirilib: “Bu, Naxçıvan Dövlət Universitetində və muxtar respublikamızda zərgərlik sahəsi üzrə ilk fərdi sərgi olub. Sərgidə 27 dəst gümüş və qızıl məmulatları olmaqla, ümumilikdə, 40-a yaxın zinət əşyaları nümayiş edildi. Sərgiyə qədim sırğa növü olan nacağı, sırğa və üzük dəstləri ilə yanaşı, Xarıbülbül sancağı, ulu öndərimizin imzasının qızılla işlənmiş variantı da təqdim olundu. İstərdim ki, bu sənət həmişə inkişaf etsin, gənclərimiz də bu gözəl və cəzbedici sənəti öyrənsinlər”, – deyə Eldar əlavə etdi.

*“Zər qədrini zərgər bilər”, – deyib atalarımız. Bu mənada, milli zərgərlik ənənələrini yaşatmağa, tanıtmağa çox böyük ehtiyac vardır. Bu gün muxtar respublikamızda digər sənət növləri kimi qədim zərgərlik sənətinin gənclərimiz tərəfindən də yaşadılması milli-mənəvi dəyərlərimizə ən böyük sadiqlik nümunəsidir.*

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

## Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzi tərəfindən 31 avqust 2022-ci il tarixdə üçüncü hərrac qiyməti ilə çıxarılacaq əmlak haqqında məlumat

| Sıra №-si | Hərraca çıxarılacaq əmlakın adı | Ünvanı | İstismara verildiyi il | Obyektin üçüncü hərrac satış qiyməti (manatla) | İlkin satış qiymətinin 5 faizi həcmində hesablanmış behin məbləği (manatla) |
|---|---|---|---|---|---|
| 1. | Texniki İnzibati Binaların Təmir-Tikinti İdarəsinin inzibati binası və yardımçı tikililəri | Naxçıvan şəhəri, Əliqulu Qəmküsar küçəsi 118 | 1980 | 68400.0 | 3800 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan əmlakın ilkin satış qiymətinin 5 faiz məbləğində beh “Naxçıvan Dəmir Yolları” MMC-nin Kapital Bankdakı AZ33AIIB33060019443100277500 hesabına 26 avqust 2022-ci il tarixədək ödənilməlidir.

Sifarişlər Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzində (Atatürk 42) qəbul olunacaqdır. Məlumat dərc olunduğu vaxtdan auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan əmlakın sənədləri ilə mərkəzdə tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün aşağıdakı sənədlər təqdim olunur:

- *müvafiq formada sifariş;*
- *ödəniləcək behin qəbzi;*
- *hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*
- *fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Hərrac 31 avqust 2022-ci il tarixdə saat $11^{00}$-da mərkəzdə keçiriləcəkdir.

Əlavə məlumatı Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzindən ala bilərsiniz.

***Əlaqə telefonu: 545-01-38***

## Heydər Əliyev adına tam orta məktəbin I sinfinə müsahibə yolu ilə şagird qəbuluna başlanılıb



Muxtar respublikamızda təhsilə göstərilən diqqət və qayğının nəticəsidir ki, ümumtəhsil məktəblərinin maddi-tədris bazası ildən-ilə möhkəmləndirilir, şagirdlərin yüksək təhsil alması, istedad və bacarıqlarının inkişaf etdirilməsi üçün müasir məktəb binaları inşa olunaraq məktəblilərin ixtiyarına verilir. Naxçıvan şəhərində ümummilli liderin adını daşıyan Heydər Əliyev adına tam orta məktəb üçün də 2004-cü ildə müasir üslubda bina inşa olunub, təhsil ocağı informasiya-kommunikasiya texnologiyaları ilə təhciz edilib. Məktəbdə 60 sinif otağı, 5 elektron lövhəli sinif, kompüter otağı, kimya, biologiya və fizika laboratoriyaları, kitabxana, hərbi kabinə, 2 şahmat sinfi və idman zalı vardır. Məktəbin kompüter otaqlarında 57 kompüter dəsti quraşdırılıb.

Heydər Əliyev adına tam orta məktəbdə tədrisin səviyyəsini daha da yüksəltmək məqsədilə yeni tədris ili üçün məktəbin Nizamnaməsi də təsdiq edilib. Nizamnamədə bir sıra yeniliklər nəzərdə tutulub. Bu yeniliklərdən biri yeni tədris ilindən məktəbin I sinfinə müsahibə yolu ilə şagird qəbuludur. Belə ki, yeni Nizamnaməyə əsasən 2022-2023-cü tədris ilindən məktəbin I sinfinə Naxçıvan şəhərində yaşayan, qəbul komissiyasının müsahibə yolu ilə seçdiyi xüsusi istedadı ilə fərqlənən uşaqlar qəbul olunur. 15 iyul 2022-ci il tarixdən 14 avqust 2022-ci il tarixədək Heydər Əliyev adına tam orta məktəbdə sənəd qəbulu həyata keçirilib. 2022-ci il 15 avqust tarixindən isə müsahibəyə start verilib. Bunun üçün Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən komissiya yaradılıb. Müsahibədə uşaqlara komissiya üzvləri tərəfindən məktəbəhazırlıq qrupu üzrə məzmun standartları əsasında hazırlanmış, ətraf aləmlə tanışlıq, savad təliminə hazırlıq, nitqin, bədii, məntiqi və riyazi təfəkkürün inkişafı, təsviri fəaliyyət üzrə suallar verilir. Qiymətləndirmə üçün namizədlərə 30 dəqiqə vaxt ayrılır. Maksimum nəticə 100 baldır. Müsahibədən sonra namizədə yekun bal haqqında məlumat verilir. Ümumi reytinq cədvəli isə müsahibə bitdikdən sonra elan olunacaq. Müsahibə eyni anda iki komissiya tərəfindən həyata keçirilir və məktəbəhazırlıq qrupunu bitirən uşaqlara üstünlük verilir.

Təhsil Nazirliyinin İmtahan Mərkəzində keçirilən müsahibə avqustun 20-nə kimi davam edəcək. Məktəbin I sinfinə 120 şagird qəbul olunacaq.

Qeyd edək ki, qəbul prosesində valideynlərin iştirakı təmin olunub; şəffaflığı təmin etmək üçün müşahidə kameraları vasitəsilə çəkiliş də aparılır.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## Şahmatçılar üçün növbəti ustad dərsləri



Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının təşkilatçılığı ilə növbəti ustad dərslərinə start verilib.

Azərbaycan milli komandasının üzvləri – beynəlxalq qrossmeyster Eltac Səfərli və beynəlxalq qrossmeyster Vasif Durarbəylinin iştirakı ilə keçirilən dərslər avqust ayının 19-dək davam edəcək.

Ustad dərsləri Naxçıvan Şahmat Mərkəzində gündə iki dəfə təşkil olunur. Belə ki, günün ilk yarısında federasiyanın titullu şahmatçıları, ikinci yarısında isə reytinqli şahmatçılar dərslərdə iştirak edir.

Bundan başqa, Şahmat Federasiyasının təşkilatçılığı ilə Ağbulaq İstirahət Mərkəzində azyaşlı şahmatçılar üçün təlim-məşq toplanışı da keçirilib. 3 gün davam edən toplanışda şahmat məktəblərindən, ümumilikdə, 30 şagird və 4 müəllim iştirak edib. Təlim-məşq toplanışının keçirilməsində məqsəd yeniyetmə və gənclərə şahmata marağın aşılanması, onların sağlam ruhda tərbiyə edilməsi, asudə vaxtlarının səmərəli təşkili, zehni məşğələlərə stimullaşdırılması, eləcə də onların peşəkar idmançı kimi yetişməsinə təkan vermək olub. Ustad dərslərini beynəlxalq usta, beynəlxalq hakim və şahmat üzrə Azərbaycanın qadınlardan ibarət yığma komandasının baş məşqçisi Fikrət Sideifzadə, Naxçıvan Şahmat Mərkəzinin müəllimləri Urfan Sevdimaliyev, Tural Zeynalov və Əli Məmmədov tədris ediblər.

**✍ Ceyhun MƏMMƏDOV**

## Maarifləndirici tədbir keçirilib



Naxçıvan Muxtar Respublikası Ədliyyə və Kənd Təsərrüfatı nazirliklərinin birgə təşkilatçılığı ilə Şahbuz rayonunda “Bələdiyyə mülkiyyətində olan əkinəyararlı torpaqlardan səmərəli istifadə olunması” mövzusunda maarifləndirici tədbir keçirilib.

Tədbirdə bələdiyyə mülkiyyətində olan torpaqlardan səmərəli istifadə edilməsi üçün görülən işlərdən bəhs edilib. Qeyd olunub ki, ötən ay “Araz” Elm-İstehsalat Birliyinin təcrübə təsərrüfatında taxılçılığın inkişafı və qarşıda duran vəzifələrlə bağlı keçirilən müşavirədə Ali Məclis Sədrinin bu istiqamətdə verdiyi tapşırıqlar bələdiyyə orqanları tərəfindən vaxtında yerinə yetirilməli, bələdiyyə mülkiyyətinə aid olan torpaqlardan qanunvericiliyin tələblərinə uyğun istifadəyə nəzarət gücləndirilməli, torpaq sahələrinin, xüsusilə də kənd təsərrüfatı torpaqlarının məqsədli təyinatı üzrə istifadəsi, bu sahədə pozuntuların qarşısının alınması üçün davamlı tədbirlər görülməlidir.

Çıxış edənlər kənd təsərrüfatı təyinatlı torpaqlarda əkin aparılması qaydaları və torpaq qanunvericiliyinin tələblərinin pozulması ilə bağlı məsuliyyətlə əlaqədar iştirakçılara ətraflı məlumat veriblər.

Sonda suallar cavablandırılıb və iştirakçılara metodik vəsaitlər təqdim edilib.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidməti***

### *İtmişdir*

Abbasov Həsən Cəbrayıl oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

İsmayılxanlı Sahibə Cəlil qızının adına olan 75-BH-229 nömrəli avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Abbasova Niyar Yəhya qızına məxsus Türkiyə Cümhuriyyəti kimliyi itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Xanlıqlar kəndində yaşamış Cəlilov MəhəmmədəliAbdulla oğlunun adına verilmiş JN-250$^{A}$, JN-250$^{B}$, JN-250$^{C}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə”ləri və JN-104 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Məsul katib: Muxtar MƏMMƏDOV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Güntac Şahməmmədli
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 715